**“Səs”.-**2012.-16 noyabr.-№210.-S.14.

# Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq əlaqələri

AXC qonşuları ilə-Osmanlı Türkiyəsi, İran və Rusiya ilə, mehriban qonşuluq siyasəti yeridirdi. Osmanlı Türkiyəsi gənc respublikaya qardaşlıq münasibəti bəslədiyi və yardım etdiyi halda İran və Rusiya AXC-nin yaranmasını qısqanclıqla qarşıladı. AXC Zaqafqaziya respublikaları Gürcüstan və Ermənistanla da münasibətlərini tənzimləməyə çalışırdı. Bu respublikalarla Azərbaycan ərazi mübahisələrini həll etməli idi.

T.Svyatoçovski yazır ki, “İstiqlal Bəyannaməsi”ndə Azərbaycanın ərazi iddiası ancaq Arazdan şimaldakı ərazi ilə məhdudlaşdırılsa da, “Azərbaycan” adının işlənməsi çox keçmədən İranın etirazına səbəb oldu. Tehranda şübhələr oyandı ki, Azərbaycan Respublikası (AXC - V.Ö.) Təbriz vilayətini İrandan ayırmaq üçün Osmanlı dövlətinə xidmət edir. Həmçinin, Gilandakı Cəngəli milli inqilabı hərəkatı öz qəzetində hər bir müsəlman torpağının müstəqilliyini “fərəh mənbəyi kimi” alqışlayaraq yeni respublikanın Azərbaycan adını seçməsinin onun İrana birləşmək arzusu ilə bağlı olub-ol- maması məsələsinə toxunurdu. İrana birləşmək niyyətinin gerçək olduğu təqdirdə, bu niyyət aydın şəkildə ifadə olunmalıdır, əks halda, iranlılar həmin respublikanın Azərbaycan adlanmasına qarşı çıxa bilərlər. Buna görə də, İranın şübhələrinə son qoymaq məqsədilə, Azərbaycan hökuməti xaricə göndərilən sənədlərdə Qafqaz Azərbaycanı istilahını işlədəcəkdi.

Müstəqillik haqqındakı bəyan-namənin ardınca, müsəlman dünyasında ilk respublikanın təşkil olunması sahəsində atılan növbəti addım baş nazirin seçilməsi oldu. Hamı bir nəfər kimi Xan Xoyskinin üstündə durdu. Xan Xoyski müvəqqəti paytaxtı Gəncədə olan Azərbaycan Respublikasının yaradılması haqqında xarici hökumətlərə məlumat verən teleqramlar göndərməklə artıq öz işinə başlamışdı.

Demokratik respublika iyirmi üç ay yaşadı və onun fəaliyyətdə olduğu müddət üç ayrı-ayrı mərhələyə bölünür. Birinci mərhələ Osmanlı himayəsi altında keçən dövr idi. Zaqafqaziya Federasiyasının varisi olan hər üç dövlət iyunun 4- də Batumda Osmanlı dövləti ilə sülh və dostluq haqqında ayrı-ayrılıqda müqavilələr imzaladı. Torpaqları, az qala, 4 min kv.milə endirilmiş Ermənistandan, ya da iki rayonunu tərk etməyə məcbur edilmiş Gürcüstandan fərqli olaraq, Azərbaycan-Osmanlı münasibətlərini xarakterizə edən dostluq kəlməsi xüsusi məna kəsb edirdi. Azərbaycan nəinki bütün ərazisini özündə saxladı, həm də əldə olunmuş müqavilənin IV maddəsinə görə, təhlükəsizlik və ictimai asayişin bərpa edilməsi üçün osmanlılardan hərbi kömək haqqında, habelə, Bakının alınması və Dağlıq Qarabağda fəallıq göstərən erməni partizanlarının (quldur dəstələrinin - V.Ö.) təcavüzünü cilovlamaq haqqında təminat aldı.

Azərbaycanın xarici əlaqələrində mühüm yer tutan Osmanlının üstün qüvvə olduğunu və gücünü göstərmək istədiyi regionda onun siyasi xəttində əsas cəhət Rusiyanın-Qafqaz cəbhəsinin dağıdılmasından irəli gələn nəticələrdən biri Turan niyyətlərinə yenidən qayıdılması idi. Bu halda, türk qoşunları açıq-aşkar düşmən mövqelərlə üzləşirdilər. 1918-ci ildə Xəzərarxası və Türküstanın içərilərinə nüfuz edilməsilə Turan yolunda daha iddialı addımlar atıla bilərdi. Osmanlıları öz növbəsində Əfqanıstan, Cənubi İran və Hindistanda Britaniya əleyhinə panislamist qiyamlar törədəcəkdi.

Ənvər Paşanın qoşunlardan az əhəmiyyəti olmayan, onun möhtəşəm niyyətlərini dərk edib həyata keçirməkdə tam bel bağlaya biləcəyi komandirlərə ehtiyacı var idi. Ənənəvi olaraq, o, yaxın qohumlarına üz tutdu. Ənvər Paşa Şərqi Ordu Qrupunun komandanlığını Xəlil Paşanın ixtiyarına verdi və onun ərəb tayfalarmı italyanlar, əleyhinə təşkilatlandırmaqda təcrübə qazanmış 28 yaşlı ögey qardaşı Nuri Paşanı Tripolitaniyadan geri çağırdı. Nuri Paşanın aldığı yeni tapşırıq Arazdan şimalda Azərbaycan ərazisində yaradılacaq xüsusi qüvvəyə - islam Ordusuna komandanlıq etmək idi. Mayın sonunda Nuri Paşa türklərin əlində olan Təbrizdən keçərək Gəncəyə yola düşdü. Burada o, sürətlə İslam Ordusunu təşkil etməyə başladı. Bu, Osmanlı-Azərbaycan-Dağıstan döyüşçülərindən ibarət yığma hərbi qüvvə Ənvər Paşanın Zaqafqaziyada güddüyü siyasi məqsədlərin yerinə yetməsində başlıca vasitə olmalı idi. Azərbaycanda yaranmaqda olan Müsəlman Milli Korpusu və azəri qeyri-nizami dəstələrinin demək olar ki, hamısı bu orduya daxil edildi.

T.Svyatoçovskinin fikrincə, İstanbul rejimi Sovet Rusiyası ilə, ondan da daha çox öz Almaniya müttəfiqi ilə Berest-Litovsk müqaviləsinin şərtlərini pozmaqdan ehtiyat edərək və vəziyyəti mürəkkəbləşdirmək istəmədiyindən, təşkil edilmiş ordu, hüquqi cəhətdən osmanlı tabeçiliyindən kənar bütünlüklə yığma qoşun idi. “Azərbaycanın müstəqil islam hökuməti tərəfindən edilən xahişə əsasən” - Azərbaycan-Osmanlı paktı imzalanmazdan qabaq - iyunun 2-də Nuri Paşa Bakı müsəlmanlarını bolşevik hakimiyyətindən azad etmək haqqında göstəriş aldı. Əhali türkləri hərarətlə salamladı və müsəlman həmrəyliyi hissləri güclü şəkil aldı. Lakin çox keçmədən osmanlı

komandirləri ilə Azərbaycanın dövlət adamları arasındakı münasibətlərdə bir sıra anlaşılmazlıqlar yarandı.

Nuri Paşa özünün siyasi məsləhətçisi Əhməd Ağayev vasitəsilə Türkiyənin solçulardan və ya "ən əvvəl Azərbaycanın mövqeyi" siyasətinə meyil göstərənlərdən daha çox, mühafizəkar və panislamist ünsürlərə rəğbət göstərdiyi faktını açıqladı. "Azərbaycan tarixi" kitabında göstərilir ki, "İstiqlal bəyannaməsi"nin qəti olaraq həyata keçirilməsi xeyli dərəcədə Azərbaycan Respublikasının dünya dövlətləri tərəfindən hüquqi cəhətdən tanınmasından asılı idi. "Azərbaycan" qəzeti 1918-ci iiin dekabrında bununla əlaqədar ürək ağrısı ilə yazırdı ki, "hal-hazırda Avropa və Amerikada Azərbaycanın mənafeyini heç kim müdafiə etmir". Belə vəziyyət Azərbaycan ictimaiyyətində ciddi təşviş hissi doğururdu, çünki Parisdə sülh konfransının açılması vaxtı getdikcə yaxınlaşırdı. Yeni yaranmış bütün dövlətlərin, o cümlədən, Azərbaycanın taleyi məhz bu konfransda həll olunmalı idi. Parlament Paris konfransında Azərbaycanın mənafeyini müdafiə etmək məqsədi ilə çoxpartiyalılıq əsasında xüsusi nümayəndə heyəti yaratdı.

1919-cu il aprelin 25-də Tiflisdə siyasi, iqtisadi, maliyyə və ərazi mübahisələrini həll etmək üçün Zaqafqaziya dövlətlərinin konfransı açıldı. Azərbaycan Respublikasını konfransda xarici işlər naziri M.Y.Cəfərov, parlament üzvləri - F.X.Xoyski, X.Xasməmmədov təmsil edirdilər. Konfransın elə başlanğıcında bir tərəfdən, Azərbaycan ilə Gürcüstan, digər tərəfdən isə, Ermənistan arasında ciddi ixtilafların olduğu aşkara çıxdı. Belə ki, birincilərdən fərqli olaraq Ermənistan, ilk növbədə, ərazi mübahisələrinin həll edilməsini tələb edirdi. Denikin ordusunun Dağıstan və Gürcüstan üzərinə hücumunun başlanması ilə əlaqədar olaraq konfransın işi yarımçıq qaldı.

"Türkmənçay" müqaviləsinin 8-ci bəndini bəhanə edən Denikin Azərbaycan donanmasının milli dövlət bayrağı altında Xəzər dənizində üzməsinin qarşısını almaq üçün cəhd etdi. Həmin səndə görə yalnız Rusiyanın Xəzər dənizində hərbi donanma saxlamaq hüququ vardı. Azərbaycanın xarici işlər naziri M.Y.Cəfərov Denikinə göndərdiyi notada bu əsassız tələbi rədd etdi. Notada deyilirdi: "1828- ci il "Türkmənçay" müqaviləsi Rusiya ilə İran arasında bağlanmışdır və Azərbaycan üçün heç bir qüvvəyə malik deyildir. Nəzərinizə çatdırmağı lazım bilirəm ki, Azərbaycan donanması indiyə qədər olduğu kimi bundan sonra da öz milli bayrağı altında üzəcəkdir". Azərbaycan xalqı istiqlaliyyətinin birinci ildönümünü belə həyəcanlı bir şəraitdə, faktiki olaraq Denikinlə müharibə vəziyyətində qarşılaşmalı oldu.

İstiqlal günü, 1919-cu il mayın 28-də Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyəti- ni ABŞ prezidenti V.Vilson qəbul etdi. Vilsona təqdim olunmuş memorandumda Azərbaycan Respublikasının yaranma tarixi və bir ildə keçdiyi inkişaf yolundan bəhs olunur, Azərbaycan nümayəndə heyətinin qarşısında duran vəzifələr şərh edilirdi. Həmin vəzifələr - Azərbaycan istiqlaliyyətinin tanınması, Azərbaycanın Millətlər Cəmiyyətinə daxil olması, ABŞ ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaradılması və Azərbaycana hərbi kömək göstərilməsindən ibarət idi. Vilsona məlumat verildi ki, göstərilən şərtlərin yerinə yetiriləcəyi təqdirdə Azərbaycan Respublikası keçmiş çar Rusiyasının öz payına düşən borclarını ödəməyə hazırdır.

Azərbaycan Respublikasının bütün ərazisinə qarşı iddia irəli sürmüş İranın Paris konfransındakı mövqeyi Azərbaycan nümayəndəliyi üçün gözlənilməz oldu. Xoşbəxtlikdən İran tərəfinin bu gülünc tələblərini 'konfrans iştirakçıları ciddi qarşılamadılar və 1919-cu il 9 avqust tarixli ingilis-İran sazişinin imzalanmasından sonra iranlılar, ümumiyyətlə, konfransın işindən uzaqlaşdırıldılar. 1919-cu ilin yayında Azərbaycanın siyasi həyatında əlamətdar hadisə baş verdi. Avqustun ikinci yarısında ingilis qoşunları Azərbaycan ərazisini tamamilə tərk etdilər və bu andan etibarən Azərbaycan tam müstəqil dövlət kimi yaşamağa başladı. Bədxahlarımızın qabaqcadan söylədiklərinin əksinə olaraq, nə kütləvi bolşevik çıxışları, nə də digər ağlasığmaz "fəlakətlər" baş verdi. Dövlət strukturları ingilislərin vaxtında olduğu kimi, normal fəaliyyətini davam etdirirdi. Bununla da, Azərbaycan xalqı müstəqil yaşamağa qadir olduğunu bütün dünyaya bir daha nümayiş etdirmiş oldu.

1919-cu ilin ikinci yarısında Azərbaycan xalqının 19 aylıq müstəqil və azad həyatının əsas yekunları aşağıdakılardan ibarət idi:

Birinci, lap yaxınlaradək bir çox siyasi və vətəndaşlıq hüquqlarından məhrum edilmiş, dövlət quruculuğu sahəsində heç bir təcrübəsi olmayan xalq qısa bir tarixi müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratdı.

**Vahid Ömərov, fəlsəfə üzrə fəlsəfə doktoru**